AZƏRBAYCAN RESPUBLİKASI
KÜRDƏMİR RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# SƏRƏNCAMI

№107 «07» iyun 2022-ci il

**Kürdəmir Rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə Komissiyanın yaradılması barədə**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun 6.1-ci maddəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 saylı Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

1. Kürdəmir rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət seçki komissiyası yaradılsın.

2. Seçki komissiyasının tərkibi yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının əməkdaşlarından 4 üzv, vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 5 üzv olmaqla aşağıdakı kimi təsdiq edilsin:

**Komissiyanın sədri:**

**Vəsilə Əsgərli** - Kürdəmir rayon İcra Hakimiyyəti Başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

**Şahin Əhmədov** - Kürdəmir rayon İcra Hakimiyyəti Başçısı Aparatının Hüquq şöbəsinin müdiri

**Elxan Qafarov** - Kürdəmir rayon İcra Hakimiyyəti Başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı

**Samir Hüseynov** - Kürdəmir rayon İcra Hakimiyyəti Başçısı Aparatının Ərazi idarəetmə və özünü idarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən,

| | | |
|---|---|---|
| | | məsləhətçi |
| **Fərəc Dadaşov** | - | Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Kürdəmir rayon filialının sədri |
| **Aqil Əliyev** | - | Kürdəmir şəhəri "Cümə" məscidinin imamı |
| **Əli Ağayev** | - | Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı İctimai Birliyinin Kürdəmir rayon filialının sədri |
| **Cəbrayıl Cəbrayılov** | - | Təhsil İşçiləri Həmkarlar Təşkilatının Kürdəmir rayon Komitəsinin sədri |
| **Rasim Əzizov** | - | Səhiyyə İşçiləri Həmkarlar Təşkilatının Kürdəmir rayon Komitəsinin sədri |

3. Kürdəmir rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın tərkibi 7 nəfər müəyyən edilsin.

4. Seçki komissiyasına tapşırılsın ki, rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində (www.kurdemir-ih.gov.az), "Kürdəmir" qəzetində və digər müvafiq yerlərdə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin.

5. Komissiyaya tapşırılsın ki, Kürdəmir rayon İcra Hakimiyyəti yanında İctimai Şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətinə başa çatdırsın və seçkilərin "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin.

6. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsini müvəqqəti icra edən Elza Dünyamalıyeva tapşırılsın ki, sərəncamın aidiyyəti üzrə çatdırılmasını təmin etsin.

7. Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri V.Ə.Əsgərliyə tapşırılsın.

**Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı** **Elxan İbrahimov**